Yəhya Paşazadə

## Vətən böləndü

Bizdən kim yıxıldı, qaldırdıq, fəqət
Elə zənn elədik, endik, əksildik.
Gəzdirdik başımız üstə yadları,
Ancaq özümüzə qənim kəsildik.

Yetənə qəlb açdıq, sirr verdik, nahaq,
Yandı ağzımızda, dil tən bölündü.
Süfrəni böldükcə özgələrlə biz,
Ayrılıq başladı, vətən bölündü.

Hər yerdə yadları saldıq qabağa,
Qaldılar kənarda doğmalarımız.
Ən yağlı tikəmiz çəkildi, şişə,
Kəsildi ən şirin loxmalarımız.

Bir tale yaşadıq, zaman titrədi,
Biz ötdük, izlərdə azdı özgələr.
Keçmişi şərəfli, şanlı millətin,
Əfsus, tarixini yazdı özgələr.

Əkilən güllərin tikanı bizim,
Ətri özgələrin oldu, təəssüf!
Yad kəslər göz dikdi meyvələrinə,
Bağımız biryolluq soldu, təəssüf!

Yetənə qəlb açdıq, sirr verdik nahaq,
Yandı ağzımızda, dil tən bölündü.
Duz-çörək böldükcə biz özgələrlə,
Süfrə bölünmədi, vətən bölündü.

## Tapşırın dünyanı siz analara

Ana ağuşunda ovunur həyat,
Ömürlər qovuşur ən xoş anlara.
Anaya həmişə ehtiyacı var,
Tapşırın dünyanı siz analara...

Ana kirpiyində sübh çiçəkləyir,
Əridir nəfəsi buzu, qarı da.
Göylərə ucalan ana əliylə
Açılır Tanrının qapıları da...

Ana sevinəndə sevinir günəş,
Qönçələr gül açır, sular çağlayır,
Təbiət boğulur, göz yaşlarından,
Elə ki, görəndə anam ağlayır...

Vətən başlanıbdır ana sözündən,
Ananın südündən içilib vətən.
Bir ana isməti tapdalanıbsa,
Yüz yol xırdalanıb, kiçilib vətən.

Dünyanın nəbzini tutub əlində,
Ananın yuxusu daim çin olar.
Sülh deyib uçurur arzularını,
Ananın ruhu da göyərçin olar...

Beşiyi başında durar analar,
Sanki sellərin də, küləklərin də
Mənə elə gəlir, uca dağları,
Analar böyüdür, ürəklərində...

Ana qucağında ovunur həyat,
Ömürlər qovuşur ən xoş anlara.
Anaya həmişə ehtiyacı var
Tapşırın dünyanı siz analara!..

## Qara yaxırsan...

Adətmi etmisən saç boyamağı,
Rəngləri haradan hara yaxırsan.
Bir az yaşca cavan görünmək üçün
Öz ağ saçlarına qara yaxırsan...

Səpilir ağ şuma qara toxumlar,
Elə bil, başında əkirsən rəngi,
Sən öz əllərinlə saçına deyil,
İllərin üstünə çəkirsən rəngi.

Vaxtın lövhəsində cəhd etdin fəqət,
Yenə də həm ağlı, qaralı qaldın.
Rənglənib kimlərə yaxınlaşsan da,
Sən özün özündən aralı qaldın.

Tanrının payıdır daim şux qalmaq,
O da hər kasıba, zənginə düşmür.
Sənin həyatının ağarıb saçı,
Saçların həyatın rənginə düşmür.

Sanırsan, sənindir gənclik şahlığı,
Tacın zər bəzənir, taxtın rənglənir
Ruhun da boyanır saçların kimi ,
Hər dəfə yenidən baxtın rənglənir...

## Dincəlir

Qıvrılanda rahat olmur,
İlan çalanda dincəlir.
Quş ovunmur qonduğu vaxt,
Qanadlananda dincəlir.

Qəlb darıxır, döz, dedikcə,
Dodaq yanır köz dedikcə.
Yorulur düz söz dedikcə,
Dil hər yalanda dincəlir.

Heç dincəlmir, od yaxmasa,
Şimşək aramsız çaxmasa.
Göz kirimir, yaş axmasa,
Ağlar qalanda dincəlir.

İstəyirsən zər geyindir,
Üstən ipək sər, geyindir
Şal çulla, məxmər geyindir,
Ulaq palanda dincəlir.

Öyrənibdir daş atmağa,
Diz göstərib, baş atmağa
Səbri çatmır yaşatmağa,
Dərd can alanda dincəlir.

## Damcılar

Zaman damcılayır saatdan, sanki,
İstəyir dünyanı yusun damcılar.
Əsrlər səksənir, ruhlar oyanır,
Elə bil, oxuyur ovsun damcılar.

İşıqdır zülmətin içində sönən,
Şirin bir sabahdır, acı bir dünən.
Soyuq divarlarda mamıra dönən,
Ömrün üzündəki yosun damcılar.

Yarımçıq günləri gərək böləsən,
Sökülmüş gecəni necə hörəsən?
Haçan boşalacaq saat görəsən,
Haçan düşəcəkdir bu son damcılar?..

## Mənə gözlərinin işığı bəsdi

Sənə nəfəs verən həyatdır, gülüm,
Mənisə yaşadan eşqdi, həvəsdi.
İstəsən, verərəm sənə günəşi,
Mənə gözlərinin işığı bəsdi.

Səsin eşidilsə kəhkəşanlardan,
Gəlib yetişməyə yollarım çatar.
Sənə bağışlaram mən səmaları,
Bağrıma basmağa qollarım çatar.

Küləklər söz alır dodaqlarından,
Açılıb-tökülür söz incin sənin.
Sənə səadətin yerini deyim,
Mənə kifayətdir sevincin sənin.

Asılıb qalıram hörüklərindən,
Gözlərin neçə yol qəsd edir mənə.
Sənə azlıq edir sevgi dünyası,
Qəlbinin sevgisi bəs edir mənə.

Götür dağları da, dərələri də,
Mənə bir bulağın axarı bəsdi.
Sənə min baharın tər çiçəkləri,
Mənə bir çiçəyin baharı bəsdi.

## Tıxac

Dayanır yan-yana avtomobillər,
İşıqfor tıncıxıb özündən çıxır...
Bir azdan çevrilir küçələr selə,
Maşınlar işığın sözündən çıxır...

Yaman hövsələsiz olub işıqfor,
Tez sönür qırmızı, gah sarı işıq...
Maşınlar keçməyə macal tapmamış
Tutur gözlərini yolların işıq...

Bir kimsə danışıb, dinə də bilmir,
Papağı çırpılır bulanan başın.
Sanki, döngələrdə, yollarda deyil,
Gəlib boğazlarda tıxanır maşın...